

# K Ə R A M Ə T

Amansız ölüm qələm yoldaşımız Kəraməti aramızdan apardı.

Kəramət Rza oğlu Şükürov 1957-ci il dekabrın 1-də Masallı rayonunun Göyçöl kəndində dünyaya gəlib. Kənd orta məktəbini bitirdikdən sonra Gəncə Dövlət Pedaqoji Universitetində təhsil alıb. 1979-cu ildə Göyçöl kənd məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi kimi pedaqoji fəaliyyətə başlayıb. 1980-ci illərin ortalarında Bakıya köçüb. "Yazıçı", "Elm" nəşriyyatlarında işləyib, Azərbaycan Yazıçılar Birliyi Natəvan klubunun direktoru olub. Uzun müddət mətbuat sahəsində çalışıb, "Novruz", "Oğuz eli", "Nəfəs", "Yeni quruluş", "Reportyor", "Məqam" qəzetlərində müxtəlif vəzifələrdə, o cümlədən baş redaktor vəzifəsində işləyib.

Bədii yaradıcılığa tələbəlik illərində başlayıb, ilk qələm təcrübələri "Ulduz" jurnalında, ədəbi almanaxlarda işıq üzü görüb. "İşıqdan keçib gəlirəm", "İlahi, eşit dualarımı", "Son qapı" (Təbrizdə nəşr edilib) kimi kitabları maraqla qarşılanıb.

İstedadlı qələm yoldaşımız, səmimi, təvazökar insan Kəramətin işıqlı xatirəsi qəlbimizdə yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**